# Ölkəmizin zəngin turizm potensialı var

**_Azərbaycan geniş turizm potensialına malikdir. Uca dağları, yaşıl meşələri, çəmənləri, milli parkları və qoruqları, çayları və gölləri onun turistlər üçün cəlbedici olmasına imkan verir. Ölkəmizdə son illər turizmin hüquqi bazası möhkəmləndirilmiş, bu sahənin inkişafı üçün dövlət proqramları qəbul edilmişdir. Son illər turizm iqtisadiyyatımızda aparıcı sektorlardan birinə çevrilmişdir. Lakin pandemiya bu sahənin də inkişafında ciddi problemlər yaratmışdır._**



Bu gün ölkəmizdə kifayət qədər turizm şirkətləri fəaliyyət göstərir. Həmin şirkətlərin fəaliyyətində yaranan çətinliklər də son vaxtlar qismən aradan qaldırılmaqdadır.

Bu sahənin mütəxəssisi kimi onu bildirmək istəyirəm ki, turizm sektorunun inkişafı başqa bir nöqteyi-nəzərdən də kifayət qədər önəmlidir. Bu da turizmin ölkələrin, milli mədəniyyətlərin, xalqların özünəməxsusluğunun qlobal miqyasda tanıdılmasında və təbliğində oynadığı mühüm rolla bağlıdır. Beynəlxalq turizm sərgilərində iştirak edən turizm şirkətlərinin nümayəndələri yaxşı bilirlər ki, belə sərgilərdə ölkəmiz, onun nailiyyətləri, təbii sərvətləri, tarix və mədəniyyət abidələri yüksək səviyyədə təbliğ olunur.

Turizmin inkişafını şərtləndirən amillər yalnız dövlətlərin siyasi iradəsi ilə bağlı deyil. Burada ölkələrin coğrafi mövqeyi, təbiəti, nəqliyyat qovşaqlarına yaxınlığı və digər amillərin də mühüm əhəmiyyəti var. Bu baxımdan Azərbaycan turizmin inkişafı üçün bir sıra üstünlüklərə malikdir. Respublikamızda dövlətin qeyri-neft sektorunun gəlirli istiqamətlərindən biri kimi turizmin inkişafına göstərdiyi siyasi iradə ölkənin quru və su sərhədlərinə malik olması, istər Şərq–Qərb, istərsə də Şimal–Cənub nəqliyyat dəhlizlərinin burada kəsişməsi, möhkəm daxili sabitlik, müasir infrastruktur, dinamik sosial-iqtisadi inkişaf, müxtəlif mədəniyyət növlərinin yüksək səviyyədə inkişaf tapması, flora və fauna müxtəlifliyi, cəmiyyətin tolerantlığı, milli mətbəxin zənginliyi, həmçinin digər müsbət amillərlə tamamlanır. Azərbaycan yeni iqtisadi şəraitdə özünün malik olduğu bu kimi üstünlüklərdən bəhrələnərək turizmin inkişafına daha münbit və cəlbedici şərait yaratmağa çalışır.

Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanına əsasən, ölkəmizdə turizm sektorunun inkişafı ilə bağlı yaxın, orta və uzunmüddətli dövrü əhatə edən Strateji Yol Xəritəsi təsdiqlənib. Sənəddə milli iqtisadiyyatın və ölkənin tanıdılması baxımından böyük əhəmiyyət daşıyan turizm sektorunun imkanlarının genişləndirilməsi üçün konkret prioritetlər müəyyənləşdirilib.

Təbii ki, zəruri infrastruktur yaradılmadan turizmin inkişafından da söhbət açmaq mümkün deyil. Respublikamızda müxtəlif turist marşrutları üzrə geniş infrastruktur qurulmasından söhbət açarkən, dünya miqyasında məşhur brend otellərin tikintisini ayrıca vurğulamaq gərəkdir. Ölkəmizdə mehmanxana və mehmanxana tipli obyektlərin sayı 2003-cü illə müqayisədə 5 dəfədən çox artıb. Dünyanın “Four Seasons”, “Fairmont”, “Marriott”, “Hilton”, “Kempinski” “Jumeirah”, “Sheraton”, “Hyatt” kimi aparıcı otel brendlərinin respublikamızda cəmləşməsi qürurverici haldır.

Ölkənin turist cəlbediciliyinin artırılması baxımından turistlər üçün sərhədkeçmə və viza prosedurlarının sadələşdirilməsi böyük aktuallıq daşıyır. Qəbul edilən qərarlar sayəsində son illərdə respublikamıza gəlib-getmə qaydaları əhəmiyyətli dərəcədə asanlaşdırılıb.

Son illərdə ölkəmizdə bir sıra iri və yüksək səviyyəli turizm obyektləri məhz bölgələrdə yaradılıb. Bu sırada “Şahdağ” Qış-Yay Turizm Kompleksini misal göstərə bilərik. Dəniz səviyyəsindən 1300–2300 metr yüksəklikdə yerləşən turizm kompleksinin ərazisi 2058 hektardır. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən olan “Şahdağ” kompleksi digər istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir və ilboyu fəaliyyət göstərir.







Deyilənlərdən başqa, son 18 ildə Azərbaycanın regionlarında yerləşən bütün müalicə-kurort müəssisələri əsaslı şəkildə yenidən qurulub ki, bunun da sayəsində ölkədə müalicə turizmi durmadan inkişaf edir. Regionlarda yerləşən məşhur müalicəvi kurortlardan biri Naftalandır. Naftalanda “Chinar Hotel & SPA Naftalan” kompleksinin istifadəyə verilməsi son illərdə Azərbaycanda yeni səhiyyə ocaqlarının, sanatoriyaların, mehmanxanaların inşasının, kurort zonalarının inkişaf etdirilməsinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunun göstəricisidir.

Maraqlı burasıdır ki, son vaxtlar ölkəmizin yüksək səviyyəli turizm imkanları ayrı-ayrı ölkələrin mətbuatında da geniş şəkildə işıqlandırılmaqdadır. Məsələn, Fransanın www.madame-oreille.com portalında “Azərbaycan gündəliyi, kontrastlar ölkəsinə səyahət” adlı məqalə dərc olunub. Məqalədə “Nomade aventure” qrupu ilə ölkəmizdə səfərdə olmuş fransalı jurnalist Azərbaycanın görməli yerlərindən, təbiətindən söz açıb. Elə bu günlərdə Fransa mətbuatında Qarabağın turizm imkanları ilə bağlı daha bir məqalə ilə rastlaşdım.

İtaliyanın populyar “Lagenziaviaggi.it” turizm portalında jurnalist-səyahətçi Massimo Tallarigonun müəllifi olduğu “Azərbaycan – Odlar diyarı. Burada hər şey inkişaf edir” adlı məqalə dərc olunub.

Bu sahədə çalışan şirkətlərdən birinin rəhbəri kimi deyə bilərəm ki, Qarabağın işğaldan azad olunması Azərbaycan turizminin inkişafına güclü təkan verəcək. Mən Prezidentimiz İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizə – Ağdama, Zəngilana, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Şuşaya və Hadruta səfərlərini televiziya vasitəsilə diqqətlə izləmişəm. Bu səfərlər zamanı çıxışlarında cənab Prezident dəfələrlə vurğulamışdır ki, biz erməni vandallarının darmadağın etdiyi şəhər və kəndlərimizi əsl cənnətə çevirəcəyik. Azərbaycan xalqı buna inanır və öz rəhbərinin qurucu və yaradıcı lider olduğunu yaxşı bilir. Biz turizm işçiləri də əminik ki, bu yerlərə yaxın gələcəkdə böyük turist axını olacaq.

Dövlət başçımız deyib: “Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə indidən turizm marşrutları işlənib hazırlanmalıdır ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin. İndidən beynəlxalq turizm sərgilərində – pandemiyadan sonra bu sərgilər bərpa ediləcək – Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstərilməlidir ki, biz bu bölgəni, doğrudan da, dünya üçün çox cəlbedici bölgə kimi təqdim edək. Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək”.

Hazırda Prezidentin tapşırığı ilə Dövlət Turizm Agentliyi işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası və siyasətini hazırlayır. Söz yox ki, turizm məhsullarının hazırlanması həmin ərazilərdə turizm infrastrukturunun qurulması ilə paralel aparılacaq. Əlbəttə, turistlərin təhlükəsizliyinin təmin olunması başlıca vəzifədir. Əhalinin geri qayıdışı, yaşayışın və infrastrukturun bərpası ilə paralel olaraq orada turizm məhsulları da yaradılacaq. Nəqliyyat infrastrukturunun, mülki infrastruktur və investisiyalar üçün şəraitin qurulmasına artıq start verilmişdir.

Bu bölgəyə turist axını üçün əlverişli coğrafi şərait yaratmaq mümkündür. Xudafərin vasitəsilə İran, Naxçıvan üzərindən isə Türkiyə turistlərinin gəlməsi mümkün olacaq. İşğaldan azad edilmiş ərazilərə bu iki istiqamətdən turist axını gözlənilir. Azərbaycan turizminin prioritet bazarı var ki, bu istiqamətdə də işlər aparılması zəruridir.

Şuşada, həmçinin turizmin güclü inkişaf potensialı var. Bu şəhərdə Pənahəli xanın sarayı, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, Şuşa mağara düşərgəsi, Şuşa qalası kimi tarixi abidələr və muzeylər ziyan görsə də, sürətlə bərpa işləri aparılır. Şuşa tarixi sağlamlıq və mədəni turizm üçün böyük imkanlara malikdir. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, Cıdır düzü və s. turizm üçün geniş perspektivlər vəd edir. Turşsu şəfalı və müalicəvi suyunun isə sağlamlıq turizminin inkişafına gətirib çıxaracağı şübhəsizdir. Şuşa həm də Qarabağ xalçaçılıq sənətinin mərkəzlərindən biri kimi inkişaf imkanlarına malikdir.

Mənə belə gəlir ki, dövlət, özəl sektor və alimlərin birgə səyi sayəsində Dağlıq Qarabağın sıfırdan turizm potensialı imkanları işlənib hazırlanmalıdır. Onlar Qarabağın həm təbii, həm də antropogen turizm resurslarını nəzərdən keçirməlidirlər. Qarabağda turizmin inkişafı üçün yeni marşrutlar yaradılmalıdır. Dağlıq ərazi olduğundan, dağ və alpinizm turizmi xüsusi qeyd edilməlidir. Bundan başqa, gəzintilər, aktiv və ekstremal turizmi inkişaf etdirmək mümkündür.

Rəhbərlik etdiyim “Qlobus” turizm şirkəti də Qarabağda turizmin inkişafında əhəmiyyətli rol oynamağa hazırdır.

***Eldəniz SƏFƏROV,***
***“Qlobus” turizm şirkətinin rəhbəri***